# Azərbaycanın yüksək qlobal nüfuzunun göstəricisi

## Böyük Britaniya ölkəmizə dəstəyini davam etdirir

**"Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Rişi Sunakın Prezident İlham Əliyevə ünvanlandığı məktub beynəlxalq aləmdə dövlətimizə olan yüksək etimadın və Azərbaycanın yüksək qlobal nüfuzunun bariz nümunəsidir. Məktubda qeyd edilənlər həm də Azərbaycanla Britaniya arasında münasibətlərin inkişaf edən xətt üzrə irəlilədiyini sübuta yetirir. Təsadüfi deyil ki, Britaniya gücünə və qüdrətinə inandığı Azərbaycanı hər zaman olduğu kimi, COP29-la bağlı da dəstəkləməyə davam edir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat söyləyib ki, Bakının noyabr ayında COP29-a evsahibliyi etməsi ilə bağlı qərar bütün dünyanın diqqətindədir: "Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Rişi Sunakın Bakı Qlobal Forumunun keçirilməsi münasibəti ilə təbriki də bunu təsdiq edir. Platformanın vacibliyi və dünyanın qarşısında aciz olduğu ən mühüm problemin həllinə yönəlmiş bu beynəlxalq tədbir BMT çərçivəsində ən genişmiqyaslı tədbirdir. Nəzərə almaq lazımdır ki, COP28-də yüz minə yaxın nümayəndə iştirak etmişdi. Prezident İlham Əliyev də həmin Zirvə görüşünün iştirakçılarından biri idi. Bu faktlar COP29-a evsahibliyinin nə qədər məsuliyyətli və əhəmiyyətli olduğundan xəbər verir. Lakin şübhə yeri yoxdur ki, Azərbaycan hər zaman olduğu kimi, bu tədbirə də evsahibliyi etmək kimi mühüm vəzifənin öhdəsindən layiqincə gələcək. Rişi Sunak da öz təbrik məktubunda ölkəmizin bu işin öhdəsindən uğurla gələcəyinə inandığını xüsusi qeyd edib".

Deputatın dediklərinə görə, COP29-un Bakıda keçirilməsi həm də beynəlxalq aləmin dövlətimizin iqlim dəyişikliyi sahəsində gördüyü işlərə verdiyi qiymətin göstəricisidir. Birləşmiş Krallığın Baş nazirinin Azərbaycanın qlobal problemlərə töhfəsini çox yüksək dəyərləndirməsi də bu baxımdan təsadüfi deyil.

Deputat, Rişi Sunakun məktubuna toxunaraq bildirib ki, o, qlobal tullantıların azaldılmasının tərəfdarıdır: "Böyük Britaniya neft və qaz istehsalçısı olan ölkə kimi Paris öhdəliyinə sadiqdir, ədalətli keçid kursunun qəbul edilməsinin zəruriliyini anlayırıq. Biz iqlim dəyişikliyi ilə mübarizə üçün trilyonlarla vəsaiti cəlb edəcək iddialı nəticələr əldə etməliyik. Azərbaycan, BƏƏ və Braziliyanın bu sahədə birgə fəaliyyətini də alqışlayırıq".

Baş nazir həmçinin Qlazqoda bu sahədə əldə etdikləri təcrübəni bizimlə bölüşməyə hazır olduqlarını da vurğulayıb.

Müşfiq Cəfərov baş nazirin Britaniyanın Xəzər dənizi vasitəsi ilə yeni nəqliyyat bağlantılarını dəstəkləməsi ilə bağlı fikirlərinə də xüsusi diqqət çəkib. O qeyd edib ki, təbrik məktubunda "COP29-a qədər sülhün nail olunduğu Cənubi Qafqaz görmək daha önəmli hadisə olardı" ifadəsi Azərbaycan xalqını yeni uğurlara daha da ruhlandırır.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 16 mart, № 59.- S.2.